# MÜBARİZ KEŞİKDƏ

21 iyun 2018-ci il
Cümə axşamı

№ 24 (3388)

1933-cü ildən çıxır

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Müqəddəs Ramazan bayramı münasibətilə sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərim "on bir ayın sultanı" sayılan mübarək Ramazan ayında nazil olmuşdur. Müsəlmanlar bu ayda Uca Yaradan qarşısında vicdani borcunu yerinə yetirmək fürsəti əldə edir, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Orucluq mərasimləri hər il cəmiyyətimizdə humanizmin, birlik və bərabərliyin təntənəsinə çevrilir. Bu mübarək ayda xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi naminə edilən bütün dua və diləklərlə həmrəy olduğumu bildirir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini minnətdarlıqla yad edirəm.

Əlamətdar haldır ki, builki Ramazan günləri müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubiley təntənələri ilə bir vaxta təsadüf edir. Müstəqil dövlətçiliyimizin bərpasından sonra ölkədə mütərəqqi islami dəyərlərin bərqərar edilməsi cəmiyyətimizin mənəvi-əxlaqi yüksəlişinə təkan vermiş, öz milli köklərinə daim sadiq qalan xalqımızın bütövlüyünü, vəhdətini və həmrəyliyini daha da gücləndirmişdir. Bu gün dövlət müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda Azərbaycanın oğul və qızlarının sarsılmaz mübarizə əzmi və yüksək vətənpərvərliyi tarixi ənənəyə və milli-mənəvi dəyərlərə bağlılığın bariz nümunəsidir.

Əziz bacı və qardaşlarım!

Könül xoşluğu ilə yola saldığımız Ramazan ayı artıq başa çatır. Bu əziz bayram günlərində bir daha etdiyiniz dua və niyyətlərin Ulu Tanrı dərgahında qəbul olunmasını arzu edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət diləyirəm.

Ramazan bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
*Bakı şəhəri, 13 iyun 2018-ci il.*

***Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp iyunun 13-də Ramazan bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə təbrik məktubu göndərib.***

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyasına işgüzar səfərə gəlib.

İyunun 13-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

Dövlət başçıları görüşdə çıxış ediblər.

İyunun 14-də Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak ediblər.

İyirmiyə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionatlarının açılış mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçilib. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam olub, məşq ərəfəsində deyil, birbaşa Rusiya-Səudiyyə Ərəbistanı matçından əvvəl keçirilib.

Britaniyalı müğənni Robbi Uilyamsın və Vyana Operasının solisti, tanınmış opera müğənnisi Aida Qarifullinanın ifası mundialın açılış mərasiminə əlavə əzəmət qatıb.

Açılış mərasiminin prodüseri Rusiyanın Birinci kanalıdır. Bu əzəmətli şounun konsepsiyasının müəllifi isə rejissor Feliks Mixaylovdur. Bu işdə ona İlya Averbux da kömək göstərib. İkiqat dünya çempionu, braziliyalı futbolçu





Ronaldo da açılış mərasiminə qatılıb.

Dünya çempionatına ev sahibliyi edən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin mərasimdə çıxış edib.

Rusiya dövlətinin başçısı bütün qonaqları Moskvanın əfsanəvi "Lujniki" stadionunda salamlayaraq, dünyanın mehriban futbol ailəsini çempionatın açılışı münasibətilə təbrik edib. Bu möhtəşəm idman hadisəsinin ilk dəfədir ki, Rusiyada keçirildiyini deyən Vladimir Putin ölkəsində bu idman növünə xüsusi sevginin bəslənildiyini də əlavə edib. O, bu idman bayramını Rusiyada qəbul etmək üçün dünya çempionatına məsuliyyətlə hazırlaşdıqlarını bildirib. "Harada yaşamağımızdan, hansı ənənələrə riayət etdiyimizdən asılı olmayaraq, bizim hamımızı bu parlaq idman növü - futbola sevgi birləşdirir. Futbolun gücünün əsasını humanizm təşkil edir. Çünki bu, birlikdir", - deyən Rusiya Prezidenti bu birliyi gələcək nəsillər üçün qoruyub-saxlamağın vacibliyini vurğulayıb.

FIFA-nın prezidenti Canni İnfantino da çıxışında Rusiyada başlayan futbol üzrə dünya çempionatının idmanın bu növünün həvəskarlarına maraqlı anlar yaşadacağını söyləyib.

Otuz iki ölkənin yığma komandalarının mübarizə apardığı budəfəki futbol üzrə dünya çempionatı iyunun 14-dən iyulun 15-dək davam edəcək. Çempionat Rusiyanın 11 şəhərinin 12 stadionunda keçirilir.

Açılış mərasimini "Lujniki" stadionunda 80 min, televiziya ilə birbaşa yayımla isə təqribən 1 milyard nəfərə qədər tamaşaçı izləyib.

Rusiyada təşkil olunan futbol üzrə növbəti dünya çempionatı meydan sahiblərinin oyunu ilə başlayıb.

Açılış mərasimindən dərhal sonra "A" qrupunda mübarizə aparan Rusiya və Səudiyyə Ərəbistanının yığma komandalarının görüşü olub.

## DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyəti İsrail Dövlətində rəsmi səfərdə olub.**

İki gün davam edən səfər çərçivəsində cənab Ramil Usubov və onu müşayiət edən şəxslər Təl- Əviv şəhərindəki İsrail Antiterror Mərkəzinin fəaliyyəti ilə tanışlıqdan sonra bu ölkənin Müdafiə Nazirliyinin tabeliyindəki sənaye müəssisələrində də olublar. Burada istehsal edilən müasir texnoloji vasitələr və məhsulların cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahələrində tətbiqinə dair qonaqlara məlumat verilib.

Daha sonra daxili təhlükəsizlik naziri Gilad Erdan və müdafiə naziri Aviqdor Liberman general-polkovnik Ramil Usubovun başçılıq etdiyi nümayəndə heyətini qəbul ediblər.

Qonaqpərvərliyə və səfərin yüksək səviyyədə təşkilinə görə hər iki nazirə təşəkkürünü bildirən nazir Ramil Usubov xalqlarımız arasında əlaqələrin qədim tarixə malik olduğunu, dünyada multikultural dəyərlərin hökm sürdüyü ölkə kimi tanınan respublikamızda müxtəlif millətlərin, o cümlədən yəhudilərin əsrlər boyu tolerant mühitdə, dostluq və mehribanlıq şəraitində yaşadıqlarını, ikitərəfli münasibətlərin qurulmasında ümummilli lider Heydər Əliyevin önəmli rolunu vurğulayaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və İsrail Dövləti rəhbərliyinin siyasi iradəsi nəticəsində bu əməkdaşlığın strateji tərəfdaşlığadək inkişaf etdiyini diqqətə çatdırıb.

Görüşlər zamanı regional təhlükəsizlik, beynəlxalq terrorizm və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə məsələləri ətraflı müzakirə edilib, iki ölkənin hüquq-mühafizə orqanları arasında əməkdaşlığa dair beynəlxalq hüquqi sənədlərin qəbul olunmasının zəruriliyi qeyd olunub, hazırda "Azərbaycan Respublikasının və İsrail Dövlətinin hökumətləri arasında daxili və ictimai təhlükəsizlik məsələlərində əməkdaşlıq haqqında Saziş" layihəsinin razılaşdırılması istiqamətində səylərin davam etdirildiyi vurğulanıb.

Xalqlarımızın və ikitərəfli əməkdaşlığın tarixi və perspektivləri barədə xoş sözlərinə görə cənab R.Usubova təşəkkürlərini bildirən cənab G.Erdan və cənab A.Liberman bir neçə gün əvvəl Azərbaycanda qeyd olunmuş Milli Qurtuluş Günü və Ramazan bayramı münasibətilə nümayəndə heyətimizi təbrik ediblər.

Onlar son illər ölkəmizin bütün sahələrdə əldə etdiyi uğurlardan, beynəlxalq nüfuzunun artmasından, eyni zamanda, ictimai asayişin, sabitliyin yüksək səviyyədə qorunmasından, azərbaycanlılarla bərabər əcnəbilərin, o cümlədən İsrail vətəndaşlarının da təhlükəsizliyinin təmini istiqamətində daxili işlər orqanları əməkdaşlarının böyük əmək sərf etdiklərindən məmnunluqlarını ifadə ediblər, bu səfərin iki dövlətin müvafiq strukturları arasında əməkdaşlığın daha da dərinləşməsinə xidmət edəcəyinə əminliklərini bildiriblər.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

*20 iyun 2018-ci il.*

**Dünən DİN-in Polis Akademiyasında "Azərbaycan Polisinin tarixi və inkişaf perspektivləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**



## POLİSİMİZİN 100 İLLİYİNƏ

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Polis Akademiyasının həyətində ucaldılan abidəsini ziyarət edib, önünə əklil qoyublar.

Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın müdafiəsi zamanı şəhid olan oğul və qızlarımızın, xidməti tapşırıqları yerinə yetirərkən həlak olan polis əməkdaşlarının əziz xatirəsi bir dəqiqlik sükutla yad edilib, sonra dövlət himni səsləndirilib.

Konfrans iştirakçılarına daxili işlər naziri, general-polkovnik Ramil Usubovun salamlarını çatdıran Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev cümhuriyyətin yaşadı olan polisimizin yarandığı gündən asayişin keşiyində ayıq-sayıq dayandığını, şanlı bir tarix keçdiyini, sonralar sovet milisi adlandırılan asayişi mühafizə qüvvələrinin əmin-amanlığın keşiyində mətin dayandığını, 1941-1945-ci illər müharibəsində 800 əməkdaşın iştirakını, onların böyük əksəriyyətinin qəhrəmanlıq göstərdiyini bildirib.

Qeyd olunub ki, 1990-cı illərin əvvəllərində, dövlət müstəqilliyinin bərpa olunduğu çətin dövrdə ağır sınaqlarla üzləşən polisimiz torpaqlarımıza yönəlmiş təcavüzün qarşısının alınmasında böyük fədakarlıqlar göstərib, bir çoxları şəhidlik zirvəsinə ucalıb.

Günü-gündən inkişaf edən, sıralarını sağlam, savadlı əməkdaşlarla daha da sıxlaşdıran Azərbaycan Polisinin gələcək uğurlarının təməlində dövlətin ali diqqət və qayğısının durduğuna diqqət çəkən polis general-mayoru N.Əliyev bu tədbirin də polisin tarixində iz qoyacağına inamını ifadə edib.

Qeyd edək ki, konfransda Rusiyanın tanınmış alimləri ilə yanaşı, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin, Müdafiə, Fövqəladə Hallar və Vergilər nazirliklərinin xüsusi təhsil müəssisələrinin təmsilçiləri iştirak edirdilər.

Maraqlı çıxışlar və diskussiyalarla yadda qalan beynəlxalq elmi-praktik konfransın sonunda Rusiyada keçirilən yazı müsabiqəsində fərqlənən kursantlara sertifikatları N.İ.Lobaçevski adına Nijni Novqorod Dövlət Universitetinin nümayəndəsi Svetlana Tixonova təqdim edib.

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il iyul ayının 7-də Quba Rayon Polis Şöbəsində Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# SƏFBƏSƏF DÜZÜLDÜK, VƏTƏN NAMİNƏ!

**Qarabağ müharibəsindən bəhs edən əsərlərin birindən bu yadımda qalıb. Aldığı güllə yarasından yerimək qabiliyyətini itirmiş keçmiş döyüşçüyə dostu zəng edib deyir ki, həmin illərin yadigarı olan disk əlinə keçib, görüntülərdə o da var. Dostunun cavabı isə belə olur: "Diski göndər, heç olmasa əvvəlki yerişimə baxım..."**

**Kövrəlməmək mümkün deyil. Bəzən xatirələr də döyüşür, yaralanır və ölür. Amma düşünürəm ki, Qarabağla bağlı xatirələr ölmür, ölməyəcək də.**



Tarix həm də xronologiyadı, təqvimdi. Təqvimdə rəqəmlər dəyişə bilər, yəni təqvimin hər günü həm başlanğıcdı, həm də son. 1988-ci ildən sonra isə sonumuzu düşünəcək qədər isə nə vaxtımız vardı, nə də, gücümüz. Tutunmağa bir saman çöpü belə qalmamışdı.

İyirminci əsrin "qara millətləri" siyahısında başda idik, 1920-ci ilin aprelindən sonra keçmişimizə boylanmayaq deyə, boynumuzu yüz yerdən vurmuşdular.

"Mən tarixi, adı, keçmişi bəlli bir millətin övladıyam" sözünü deyənin dilini kəsirdilər. Çünki 37-lər gizli, aşkar davam edirdi...

Başsızlıq və ordusuzluq...

Başsızlıq dünyanın ən böyük dərdidi. Bilirsiniz niyə? Necə ki, bir ailənin başsız qalmağı bizi yandırır, bir dövlətin, bir millətin başsız qalması fəlakətdir.

1988-1993-cü illər. Azərbaycan tarixinin ağlı-qaralı təqvimi. Bir yandan öz tarixi yurdundan pələsəng olan azərbaycanlıların deportasiyası, bir yandan da erməni millətçilərinin torpaq iddiası ilə Qarabağa və ətraf rayonlara hücumu. 20 Yanvar və Xocalı soyqırımlarında qanına qəltan edilən xalqın artıq özündən başqa kiməsə güvənci qalmamışdı. İrəli də ölüm idi, arxa da...

Şuşanın işğalından sonra bütün baxışlar Xəzərə dikilmişdi. Azərbaycan xalqı bütövlükdə Xəzərdə boğulmağa məhkum idi...

Amma yox, hələ qarşıda bu millətə öndərsiz, sahibsiz olmadığını anladan o gün uzaqda deyildi. Bax, həmin gün millət ürəkdən "Qurtulduq" dedi. Sıra-sıra, cərgə-cərgə düzlənən oğullar onun əmri ilə ordu qurmağa, ordu olmağa səfərbər olundu.



Artıq atılan güllələrin ünvanı bəlli idi, hədəfə dəyirdi. Və belə olmasaydı, "Vətən səni çağırır" sədasına gələnlər 1994-cü ilin yanvarında ildırım sürəti ilə Horadizi və ətraf kəndləri azad edə bilməzdi. Düşmən canını qurtarmaq üçün havadarının yanına qaçırdı. Çünki Ali Baş Komandan Heydər Əliyev idi...

Elə o çətin dövrdə Heydər Əliyev adı bir ordu demək idi. Bunu düşmən də yaxşı anlayırdı...

1994-cü il. "Əsrin müqaviləsi"ndən sonra əsrin ordusunu formalaşdırmaq uğrunda çabalar edən öndər xalqımıza "Ordum varsa, yurdum var" şüarının əzəmətini yenidən yaşatdı. Xalqına güvənən ordu və ordusuna arxalanan xalq itirdiklərini qaytarmaq, uğursuzluqlarını uğura çevirmək üçün bütün olmazları "ol" etdi.

Dəmir iradəyə, nizam-intizama malik, hər an "Qələbə" sevinci bəxş edəcək bir ordunu quran Öndərimizin Horadiz Qələbəsinin davamını Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə Aprel döyüşlərində adını tarixə yazdıran Vətən sevdalıları bizə yenidən yaşatdı. Ordusuz bir millətin heç olduğunu onda bir daha anladıq.

Güc birlikdədir. Aprel müharibəsi bıçağın sümüyə dayandığını, azadlığa gedən yolun şəhidlikdən, qazilikdən, qalibiyyətdən keçdiyini göstərdi. Qanıyla-canıyla sevdiyi torpaq uğrunda nifrətini də süngüsünün, ən müasir silahlarının ucuna pərçim edən Azərbaycan Əsgəri Goranboy rayonuna və Naftalan şəhərinə təhlükə yarada biləcək Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini azad etdi, Füzuli rayonu istiqamətində yerləşən "Lələ təpə"yə nəzarəti ələ keçirdi. Düzdür, hələ torpaqlarımızın xeyli hissəsi işğaldadır və azad olunacağı günə lap az qalır.



***İyunun 26-da Azərbaycan Ordusu 100 illiyini qeyd edəcək.***

***Mübarək olsun bayramımız da, yaxındakı Qələbəmiz də...***



*Hafiz Təmirov,*
*polis mayoru*

# BİZİM DÜNYA ÜÇÜN

**Ölkəmizdə müstəqilliyin bərpasından sonra ulu öndər Heydər Əliyevin müdrikliyi, uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır şərtlərə baxmayaraq, sosial-iqtisadi inkişaf və dünya iqtisadiyyatına inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Həmin siyasətin nəticəsidir ki, dövlətimiz bu gün iqtisadi yüksəlişinə görə dünyanın aparıcı ölkələri ilə bir sırada dayanır, regionun lider dövləti olaraq, xarici nüfuzumuz günü-gündən daha da yüksəlir.**

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasından sonra neft sahəsində bütün layihələr hazırda uğurla icra edilməkdədir. İndi Azərbaycan özünün enerji siyasətini həm də qaz amili üzərində qurmaqla regionu və Avropanı daim düşündürən enerji təhlükəsizliyi məsələsində əsas tərəfdaşa çevrilib. 1999-cu ildə Xəzərin Azərbaycan sektorunda "Şahdəniz" qaz yatağının kəşfi və buradan hasilatın başlaması ölkəmizin enerji təhlükəsizliyinin tam təmin olunması ilə yanaşı, dünya enerji bazarında böyük hadisəyə çevrildi.

"Cənub Qaz Dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də Prezident cənab İlham Əliyevin, layihənin iştirakçısı və tərəfdaşı olan ölkə və şirkət rəhbərlərinin iştirakı ilə qoyuldu. "Cənub Qaz Dəhlizi" layihəsinin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi, hasil ediləcək təbii qazın TANAP və TAP qaz boru kəmərləri vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir.

Artıq açılışı olan Avropanın, bütövlükdə regionun enerji təhlükəsizliyində çox ciddi önəm kəsb edən, 3500 kilometrlik geniş bir coğrafiyanı əhatə edən "Cənub Qaz Dəhlizi" müstəsna əhəmiyyətə malikdir.

Ölkə başçımız cənab İlham Əliyev mayın 29-da Səngəçal terminalında "Cənub Qaz Dəhlizi"nin rəsmi açılış mərasimində deyib: "Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyini yenidən tərtib edən layihədir. Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edir. Mən o ölkələrin adlarını bu gün çəkmək istərdim - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Bax, geniş beynəlxalq əməkdaşlıq yaradılıb. Cənub Qaz Dəhlizinin qolları olmalıdır. Bilirik ki, Avropada da Azərbaycan qazına tələbat var. Biz də istəyirik daha çox qazı Avropaya sataq, çünki Avropa bazarı bizim üçün ən əlverişli bazardır. Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır".

Ölkə başçımızın qətiyyəti, milli maraqlara əsaslanan siyasəti "Cənub Qaz Dəhlizi"nin həyata keçirilməsini təmin edib. Bununla da Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən və tranzit ölkə kimi əhəmiyyəti artır. Milli iqtisadiyyatımızın inkişafında mühüm addım olacaq "Cənub Qaz Dəhlizi" ölkəmizlə Qərb arasında münasibətləri daha yüksək səviyyəyə qaldırır.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə gerçəyə çevrilən möhtəşəm layihə regionun enerji xəritəsini yenidən tərtib etməklə, iştirakçı ölkələrin iqtisadi, siyasi və mədəni həyatında mühüm amilə çevrilib.

Enerji strategiyamız ölkəmizə yüksək nailiyyətlər qazandırmaqla yanaşı, xalqımıza xas olan dərin humanizm və sülhsevərliyi bütün dünyaya nümayiş etdirir.

*N.Aytəkin*

# MÜSƏLMAN ŞƏRQİNDƏ İLK RESPUBLİKA
# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

**Anar İsgəndərov,**
**Bakı Dövlət Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor**

**Əvvəli ötən saylarımızda.**

Hələ 1918-ci ilin dekabrında bolşeviklər Bakıda ümumi siyasi tətil keçirməyə nail oldular. Tətildə 25-dən çox müəssisənin 12 minə qədər fəhləsi iştirak edirdi. 1919-cu ilin mayında bolşeviklər Bakıda ikinci dəfə tətil keçirməyə cəhd göstərdilər. Azərbaycan bolşeviklərinin sosial bazasını əsasən qeyri-müsəlman əhalisi təşkil edirdi. 1919-cu il aprelin 25-də Azərbaycanın cənub bölgəsində bolşeviklər tərəfindən qızışdırılan rus əhalisinin milli hökumətə qarşı qiyamı başlandı. Qiyamçılar bölgəni «Muğan Sovet Respublikası» elan etdilər. Avqustun əvvəlində qiyam hökumət qüvvələri tərəfindən yatırıldı.

Hökumətin torpaq islahatını yubatmasından bolşeviklər məharətlə istifadə etdilər. 1919-cu ilin əvvəllərində bir sıra qəzalarda bolşeviklərin rəhbərliyi ilə kəndli çıxışları başlandı. Bunlardan ən güclüsü Gəncədə baş verdi. Bu çıxış 1919-cu ilin sentyabrında yatırıldı.

Bolşeviklər Azərbaycanın daxilində təxribatçılıq fəaliyyətlərini gündən-günə genişləndirirdilər. 1920-ci ilin fevralında təsis edilmiş Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının əsas məqsədi ölkədə vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşevikləri hakimiyyətə gətirmək idi. Bu təxribatçı quruma qatı millətçi A.Mikoyan başçılıq edirdi.

Böhranı kəskinləşdirən amillərdən biri də Azərbaycanda, xüsusən Bakıda olan Türkiyə kommunistləri və ittihadçılarının xalq arasında geniş nüfuzlarından istifadə edərək, rus ordusunun gələcək yürüşü xeyrinə təbliğat aparmaları idi. Türklər iddia edirdilər ki, guya qırmızı ordunun Türkiyədə Kamal hərəkatına köməyə tələsməsinə baxmayaraq, Azərbaycan hökuməti rus ordusunu öz ərazisindən buraxmaq istəmir. Buna görə də türk kommunistləri yerli və xarici bolşeviklərlə birlikdə milli hökumətə qarşı mübarizə aparmağa məcburdurlar. 1920-ci ildə fevralın 11-12-də Bakıda Azərbaycan Kommunist (bolşeviklər) Partiyası təsis edildi. Bolşeviklər partiyasının faktiki rəhbəri Azərbaycan xalqının qatı düşməni A.Mikoyan idi. Partiya milli hökuməti yıxmaq, Sovet Azərbaycanı qurmaq üçün silahlı üsyan xəttini irəli sürdü.

Sovet Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən istifadə etdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək planlarını Sovet Rusiyasına təklif etdilər. Qarabağda və Gəncəbasarda erməni əhalisinin qiyamı və Azərbaycana qarşı Ermənistanın müharibəsi bu planın tərkib hissəsi idi. Azərbaycan ordusunun, demək olar ki, hamısı 1920-ci ilin Novruz bayramı günlərində Qarabağ istiqamətində erməni qiyamçılarına qarşı vuruşurdu, ölkənin şimal sərhədləri isə müdafiəsiz qalmışdı. Digər tərəfdən, Azərbaycan hökumətinin Qərbdən gözlədiyi yardım gəlib çıxmırdı.

Sovet Rusiyasına münasibət məsələsində də Azərbaycan hökumətində birlik yox idi: xarici işlər naziri Fətəli xan Xoyski Rusiyaya münasibətdə sərt xəttin, daxili işlər naziri Məmməd Həsən Hacınski isə Azərbaycan bolşevikləri ilə danışığa girib onlara güzəştə getməyin tərəfdarı idi. M.H.Hacınskiyə görə Sovet Rusiyasına geniş güzəştlər verməklə Azərbaycanın istiqlalını qorumaq mümkün idi.

1920-ci ilin martında hökumətin keçirdiyi konfransda M.H.Hacınskinin tərəfdarları qalib gəldilər, N.Yusifbəyli baş nazir vəzifəsindən istefa verdi. Yeni hökumətin təşkili M.H. Hacınskiyə tapşırıldı. Lakin M.H.Hacınski bu hökumətin təşkilinə tələsmirdi, az sonra onun özü bolşeviklər partiyasına daxil oldu.

Yeni hökumətin təşkilinin yubadılması gərgin olan vəziyyəti bir qədər də çətinləşdirdi. Parlamentdə müxtəlif partiyalar arasında gedən mübarizə son həddə çatdı. Mövcud hakimiyyətə qarşı daim müxalifətdə olan və hökuməti devirməyə çalışan ittihadçılar Rusiya ilə hərbi ittifaqa girməyi tələb edirdilər, Azərbaycan bolşevikləri isə guya ölkədə qayda-qanun yaratmaq naminə hərbi yardım üçün Rusiyaya müraciət etməyə və XI rus ordusunu Azərbaycana dəvət etməyə çağırırdılar.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI rus ordusu Azərbaycan sərhədlərinə yaxınlaşdı. Aprelin 15-də F.X.Xoyski Çiçerinə göndərdiyi notada rus ordusunun Azərbaycan sərhəddində toplanmasının səbəbləri və məqsədi barədə məlumat verilməsini tələb etdi. Lakin Çiçerin bu notaya heç bir əhəmiyyət vermədi. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri xalq adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Qabaqcadan razılaşdırılmış plana görə ordu Bakıda bolşevik qiyamının başlanmasından 1-2 gün sonra Azərbaycana soxulmalı idi. Bununla da dünya ictimaiyyətində belə bir rəy yaradılacaqdı ki, Azərbaycan hökuməti xarici hərbi müdaxilənin deyil, daxili qiyamın qurbanı olmuşdur. Lakin Bakıda qiyam başlanmamış – aprelin 26-dan 27-nə keçən gecə XI ordu Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladı. Sərhəd qüvvələrindən ibarət azsaylı Azərbaycan ordu hissələri düşmənə müqavimət göstərə bilmədi. Hərbi gəmilərin topları dənizdən parlament binasına tuşlandı.

XI ordunun Azərbaycana hücumu ilə eyni vaxtda, aprelin 27-də gündüz saat 12-də AK(b)P MK və RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu adından hakimiyyəti təhvil vermək haqqında Azərbaycan parlamentinə ultimatum verildi. Azərbaycan parlamentinin fəaliyyəti həmin gün saat 20:45-də başa çatdı. Parlament aşağıdakı şərtlərlə hakimiyyətin Azərbaycan kommunistlərinə verilməsi barədə qərar çıxartdı:

1.Rus ordusu Bakıya daxil olmadan dəmir yolu ilə birbaşa Anadolunun köməyinə gedəcək;

2.Azərbaycan istiqlalı və ərazi bütövlüyü hər cür təcavüz və ilhaqdan qorunacaq;

3.Azərbaycan ordusu olduğu kimi saxlanacaq;

4.Azərbaycanın siyasi partiyaları üçün fəaliyyət azadlığı təmin olunacaq;

5.Keçmiş dövlət xadimləri, hökumət üzvləri və millət vəkilləri təqib olunmayacaq, dövlət idarələri qulluqçularının iş yerləri saxlanacaq, yalnız rəhbər vəzifəli şəxslər dəyişdiriləcək;

6.Azad şəraitdə toplaşacaq Azərbaycan Şuraları hakimiyyətin idarəçilik formalarını təyin edəcək.

Aprelin 29-da Azərbaycan İnqilab Komitəsi hərbi yardım göstərmək xahişi ilə Sovet Rusiyasına müraciət etdi. Halbuki, rus ordusu aprelin 27-də Azərbaycanın hüdudları daxilində idi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi.

1920-ci il aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu.

Aprel işğalı nəticəsində Azərbaycanda qurulan bolşevik rejiminin ömrü 70 ildən də çox çəkdi. Bu rejim bütün varlığı ərzində Şərqdə ilk demokratik respublikanın bayrağını ucaldan qeyrətli soydaşlarımıza, onların haqq işinin davam etdirənlərə qarşı hər cür repressiyadan istifadə etdi. Lakin xalqın qəlbində yaşayan azadlıq atəşini söndürməyə müvəffəq olmadı. Xalq özünün istiqlal arzularını nəsildən-nəslə ötürdü. Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi, indiki Azərbaycan Respublikasının 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olduğunu ümumxalq iradəsi ilə təsdiqlədi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı»nda bu tarixi amansızlığa verilən siyasi qiymət belə oldu: «1920-ci il aprelin 27-28-də RSFSR-in XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin».

Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir, ən əziz, ən qiymətli sərvətimizdir, eyni zamanda bu, XX əsrin əvvəlindən sonunadək xalqımızın qəlbində yaşayan azadlıq idealları uğrunda mübarizənin məntiqi nəticəsidir. ***Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək, «Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyimizi qorumaqdan, əbədi etməkdən ibarətdir».*** Çünki müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onu qoruyub saxlamaq bundan da çətindir.

Azərbaycan dövləti 25 ildən artıqdır ki, müstəqillik yolunda inamla addımlayır.

*...İnsanın sağlamlığını qorumaq, onu fiziki əzablardan xilas etmək mühüm, xeyirxah işdir.*

**Heydər Əliyev**
**Azərbaycan xalqının ümummilli lideri**

# ÖYRƏNƏK Kİ, BU BƏLADAN UZAQ OLAQ

Bu gün cəmiyyəti narahat edən problemlər içərisində ən mürəkkəbi, faciəvi nəticələrə gətirib çıxaranı narkomaniya və narkobiznesdir.

Dünyada milyonlarla, ölkəmizdə isə minlərlə insan bu bəladan əziyyət çəkir və əgər onun qarşısı alınmasa yaxın gələcəkdə ictimai faciəyə gətirib çıxara bilər. Ən acınacaqlısı da budur ki, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik yüksələn xətlə artır.

***BMT-nin 1987-ci il Konvensiyasına daxil olan ölkələrin "Narkotik vasitələrin və psi-*** birləşərək vahid mübarizə metodları hazırlamaqla bu dəhşətli bəlanın qarşısının alınmasında birgə səy nümayiş etdirirlər.

Azərbaycan Respublikası BMT-yə tam hüquqlu üzv olduqdan sonra "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında BMT-nin 1988-ci il konvensiyasına qoşulmuşdur.

Narkomanlığın və narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin ölkəmizin iqtisadiyyatına, ictimai asayişə, insanların sağlamlığına, mənəviyyatına, psixologi-

***xotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Bəyannaməsinə əsasən, 26 iyun "Narkomaniya və narkotiklərin qeyri-qanuni dövriyyəsinə qarşı Ümumdünya mübarizə günü" kimi qeyd olunur.***

Yaddan çıxarmamalıyıq ki, narkomanlıq yoluxucu xəstəlikdir, üstəlik də QİÇS-ə aparan bir yol kimi, gizli şəkildə, sürətlə yayılmaq xüsusiyyətlərinə malikdir.

Narkotiklə və narkobiznesələ mübarizə bəşəri bəlaya qarşı mübarizədir, buna görə də indi dünyada, o cümlədən Azərbaycan Respublikasında narkotizmlə və narkobiznesələ mübarizə işinə və onun qarşısının alınması problemlərinə yeni münasibət yaranmış və formalaşmışdır.

Bu gün narkomaniyanın yayılmasının qarşısının alınmasında dünya dövlətləri BMT-nin qəbul etdiyi üç əsas Konvensiyanın (1961, 1971 və 1988-ci illər) ətrafında sıx yasına, intellektinə vurduğu ziyanı hesablamaq mümkün deyildir. Ölkəmizdə narkotik istifadəçiləri mövcuddur və onlar mütəmadi olaraq hüquq-mühafizə orqanları tərəfindən aşkar edilərək cinayət məsuliyyətinə cəlb edilirlər.

Dövrümüzün aktual, ağrılı problemi olan narkomaniya və fəsadları, ona qarşı mübarizə yolları ilə bağlı hüquq-mühafizə orqanları əməkdaşlarının əhali, xüsusən də gənc nəsil arasında maarifləndirmə və təbliğat işlərinin aparılması mütəmadi olaraq, davam edilir.

Çünki narkomaniyaya qarşı mübarizəni gücləndirməklə gələcəyimizi, sağlamlığımızı qoruyur, dövlətçiliyimizi daha da möhkəmləndirmiş oluruq.

***R.Əliyeva,***
***polis leytenantı***

# MƏQSƏD GƏLƏCƏYİMİZİ QORUMAQDIR

**Dünya, cəmiyyət özünü tanıyandan, necə deyərlər, yetkinlik yaşına çatandan problemlərlə, cinayətlərlə üzbəüz qalanda, adı fərqli olsa da, polis peşəsi yaranıb.**

**Və elə insanlığı, bütövlükdə cəmiyyəti irili-xırdalı bu bəlalardan və cinayətlərdən qorumaq yolunda ilk sipər də polis olub. Buna görə polis peşəsi daha çox xeyirxah və nəcib xidmətdir.**

**Azərbaycan Polisinin 100 illik yubileyi ərəfəsində ölkəmizdə cinayətlərə, onların daşıyıcılarına və törənmə səbəblərinə qarşı qətiyyətli mübarizə aparan ayrı-ayrı xidmət sahələrindən çox yazmışıq, yazacağıq da. Gəncləri pis vərdişlərdən uzaq tutan insanlar bu sırada öndə dururlar. Çünki bu cəbhənin qəhrəmanları təkcə günümüzü deyil, həm də gələcəyimizi qoruyurlar.**



Vüsalə Əzimova

Rayon, şəhər polis orqanlarında bu vacib sahəyə Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili üzrə bölməsinin əməkdaşları cavabdehlik daşıyırlar. Yeri gəlmişkən, cinayətkarlıqla mübarizəylə yanaşı polisin əsas xidmət sahələrindən biri də əhali arasında profilaktik işin təşkil olunmasıdır. Bu üzdən gənc nəsillə tez-tez təmasda olmaq, onları gələcək həyata düzgün istiqamətləndirmək, pis vərdişlərdən uzaq durmağın əhəmiyyətini vaxtında öyrətmək bu vacib xidmət sahəsinin əsas vəzifəsidir.

Biz də həmin paqondaşlarımızla tez-tez tədris müəssisələrində, məktəblərdə müxtəlif tədbirlərdə bir yerdə oluruq. Nəzərə alsaq ki, yetişməkdə olan nəslin bir yarısı da gözəl qız balalarımızdır, onda bu xidmətdə qadınların işləməsinin nə qədər vacib olduğunu anlayarıq. Özlərinin də dediyi kimi, bəzən gənc, fidan qızlarımız evdə ana-bacılarına, məktəbdə müəllimlərinə demədikləri müəyyən məsələləri onlarla bölüşür, məsləhət alırlar. Təbii ki, bu etibar, inam öz-özünə yaranmır, böyük zəhmət və istək mühüm rol oynayır.

Bərdə Rayon Polis Şöbəsində olarkən, rəis, polis polkovniki İlqar Məmmədovla söhbət əsnasında bu mövzuya da toxunduq. Dedi ki, rəhbərlik cavabdeh əməkdaşlarla birlikdə mütəmadi belə tədbirlərdə iştirak edir, gərəkən tövsiyələrini verirlər. Bu RPŞ-nin YYÇPİT qrupunda həm də xanım əməkdaşlar xidmət edir.

**Vüsalə Əzimova və Nərmin Kərimli hər ikisi polis leytenantlarıdır.** Bir-birindən az vaxt fərqi ilə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitiriblər. Dövlət başçımızın diqqət mərkəzində olan məsələlərdən biri də kadrların seçilməsindəki şəffaflığın təmin olunmasıdır. Bu üzdən digər dövlət qurumlarıyla yanaşı, polisə də qəbul müsabiqə yoluyla keçirilir. Qızlar da özlərini sınamaq qərarına gəliblər və bələliklə də 2017-ci ildə keçirilən müsabiqədə yüksək bal toplayaraq, DİO sıralarına qəbul olunublar.

Öyrəndim ki, tez-tez məktəblərdə olur, şagirdlərlə "Tədrisə davamiyyət", "Erkən nigahın fəsadları", "Narkomaniyaya yox deyək", "bilə-bilə polisə yalan məlumat vermək" və digər mövzularda görüşlər keçirir, söhbətlər aparırlar. Onların xidmətlərindən şagird və müəllim kollektivi, eləcə də valideyinlər şöbə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.



Nərmin Kərimli

Vüsalə Əzimova deyir ki: "İlk dəfə sinif otağına girəndə şagirdlərin, xüsusən də qızların mundirimə müəmmalı baxışlarını hiss edirdim. Amma zaman keçdikcə bir-birimizə alışdıq, etibar etdik. İndi "Kim gələcəkdə polis olmaq istəyir" dedikdə xeyli qız oğlanlardan əvvəl əllərini qaldırır. Zənnimcə, bu mənim uğurumdur"

İşlədikləri kollektivdə həm rəhbərliyin, həm də şəxsi heyətin rəğbətini qazanan xanım əməkdaşlara gələcək iş və həyat yollarında uğurlar arzulayırıq.

***Ç.Şıxverdiyev,***
***polis polkovnik-leytenantı***

# "GECƏ KOMANDİRİ"

**Səbail rayonu. Fəvvarələr meydanı. Saat 22:30-dur. Bura, sözün əsl mənasında, qaynar qazandır. Elə gündüzləri də belədir. İnsan əlindən, necə deyərlər, iynə atsan yerə düşməz. Hələ səhərə çox var. Bakı gecələrinin sehrinə düşən turistlər heç də özlərini yad kimi, qonaq kimi aparmırlar.**



Zəngin mədəniyyətimiz, min bir dərdin dərmanı olan nemətlərimiz, füsunkar təbiətimiz, həmçinin dosta, qonağa səmimiyyətimiz, ən ümdəsi, sabitlik adlı sərvətimiz Vətənimizə gələnlərin heyranlığına səbəb olan əsas özəlliklərdəndir.

Azərbaycanı dünyaya tanıtmaq üçün illər öncə atılan addımlar, uğurlu daxili və xarici siyasət bu gün öz bəhrəsini verir. Əgər dünyanın o biri üzündə Azərbaycan deyəndə, üç rəngli bayraq, milliyyətindən, dilindən, dinindən asılı olmayaraq, hər kəsin tolerant mühitdə yaşadığı, Şərqdə ilk demokratik dövlət quran məmləkət yada düşürsə və onu görmək üçün insanlar Azərbaycana, paytaxtımıza axışırsa, deməli, Vətənimiz dünyanın, belə deyək, ən görünən, sayılan və seçilən ölkələri sırasına çıxıb artıq.

Azərbaycan inkişaf və sabitlik adasıdır. Elə bunu ölkəmizə gələnlərin dilindən tez-tez eşidirik. Bəli, sabitlik, əmin-amanlıq olan yerdə inkişaf da var, rifah da. Bu inkişafa, bu yüksəlişə töhfə verənlərin sırasında, heç şübhəsiz ki, hüquq-mühafizə orqanlarının, eləcə də Azərbaycan Polisinin öz imzası, öz dəst-xətti var…

"Fəvvarələr meydanı"ndayam. Onları müşahidə edirəm. Davranışları, ünsiyyətqurma bacarıqları, püxtələşmiş peşə vərdişləri diqqətimi çəkir. Dünyanın hər yerində belədir: Turistlərin müraciət etmək üçün ilk üz tutduqları ünvan polislərdir. Gecənin bu vədəsində, bu saatda onların burda olması həm sakinlərimizdə, həm də turistlərin özündə arxayınlıq yaradır.

Bu fikir illərdir ki, öz təsdiqini tapıb: "Bayır xidməti polisin simasıdır"…

Səbail RPİ Post-Patrul Xidməti bölüyünün əməkdaşlarının əksəriyyətini, demək olar ki, tanıyıram. Məhz onların sayəsində ərazidə avaralıq və dilənçiliklə məşğul olanlara rast gəlinmir.

"Gecə komandiri". RPİ-nin rəhbərliyi də, əməkdaşlar da ona belə deyirlər. Bəlkə də yazıya bu başlığı seçməyim və gec də olsa mətləb üstə gəlməyim sizləri yorsa da, inanıram ki, onu mənim kimi yaxından tanıyandan sonra "Bərəkallah",- deyib polisə üzağlığı gətirən belə gənclərimizin bir deyil, beş deyil, onlarla, yüzlərlə olduğuna sevinəcəksiniz.

**Tağım komandiri, polis leytenantı Rəşad Hacıyev** 1985-ci ildə Cəbrayılda doğulub. DİN-in Daxili Qoşunlarında hərbi xidmətini başa vurduqdan sonra 2010-cu ildə daxili işlər orqanlarına qəbul olunub. Polis nəfəri kimi verilən tapşırıqların öhdəsindən layiqincə gəlməyi, təşkilatçılıq bacarığı, komandirlik qabiliyyəti sonda onu Polis Akademiyasına gətirib. 2012-2016-cı illərdə Akademiyada təhsil alıb.

Bilik və bacarığı, zəhmətsevərliyi sayəsində bu gün xidmətdə inamla irəliləyir. Səbaildə, özü də hər zaman diqqət mərkəzində olan rayonda gecə xidmətinin təşkilinin ona həvalə edilməsi haqqında yazdıqlarımızın sübutudur. İnam və etibarı qorumaq onun həyat və xidmət devizidir.

O, çoxumuzun rahat yatdığı uzun qış gecələrində, isti yay günlərində həmkarları-polis serjantları Faiq İbrahimovla, Elvin Süleymanovla, manqa komandiri Rüstəm Qurbanovla, Amil Manaflıyla və Təbriz Şıxəliyevlə birlikdə asayişimizin keşiyini çəkir.

***Hafiz Təmirov,***
***polis mayoru***

# POÇT QUTUSU

**İstirahət mövsümü başladı. İndi hamı şəhərdən təbiətə can atır. Günəşin qızılı tellərinə baxıb gülümsəyən meşələrdə, gözəl Azərbaycanımızın digər səfalı yerlərində, biri-birindən yaraşıqlı, müasir istirahət yerlərində adam əlindən yer yoxdur. Bu gün vətənimizə üz tutanların da sayı az deyil. Bir sözlə, «Cənnət görmək», abadlığın, sabitliyin şahidi olmaq istəyənlər ölkəmizə axın edir.**

Bax, elə biz də bu xoşbəxtliyi yaşayanlardanıq. Sabitlik adlı sərvətimizin həm dadını çıxarırıq, həm də hamılıqla keşiyini çəkirik.

**Bakı şəhər sakini Ramiz Cəbrayılov** DİN-ə ünvanladığı məktubunda bildirir ki, may ayının 11-də özünə və ailəsinə məxsus sənədləri naməlum şəraitdə itirib. Elə həmin gün Nəsimi Rayon Polis İdarəsi Post-Patrul Bölüyünün manqa komandiri Elmin Tağıyev iş yerinə gələrək sənədlərinin tapıldığını deyib. Amma ən çox sevindirici hal bu olub, polis əməkdaşı vətəndaşın heç minnətdarlığını gözləmədən gedib…

Yenə də **Bakı şəhər sakini Əminə Həsənova** yazır ki, evini satdığı üçün qeydiyyatdan çıxıbmış. Yeni yerdə qeydiyyata düşmək üçün Nəsimi RPİ Pasport-qeydiyyat bölməsinə müraciət edib. Onu və oğlunu qeydiyyata salmaqla bərabər şəxsiyyət vəsiqəsi ilə təmin ediblər. Əminə Həsənova göstərilən köməkliyə görə polis əməkdaşlarına öz təşəkkürünü bildirir.

**Gədəbəy sakini Arzu Həsənov** bildirir ki, Mehman adlı şəxsin onu aldadaraq pul alıb qaytarmaması barədə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə ərizə ilə müraciət edib. Müraciətinə tez bir zamanda baxılaraq ona dəymiş ziyan ödətdirilib. Bununla bağlı o, vətəndaşlara olan diqqət və qayğıya görə polisə minnətdarlıq edir.

**Bakı şəhər sakini Fuad Süleymanov** yazdığı təşəkkür məktubunda qeyd edir ki, ona məxsus sualtı tüfəngləri və qayığının oğurlanması barədə 13-cü Polis Bölməsinə müraciət edib. Müraciətinə tez bir müddətdə baxılaraq, oğurluğun üstü qısa zamanda açılıb və itmiş əşyaları sahibinə qaytarılıb. Müəllif polis əməkdaşlarına minnətdarlıq edir.

**Şəhid polis övladı Vaqif Behbudov** isə səhhəti ilə bağlı DİN-in Tibb İdarəsinə müraciətdən sonra ona göstərilən qayğıya görə minnətdarlıq edir.

**Bakı şəhər sakini Cavid Qəhrəmanov** yazır ki, 28 May küçəsində yerləşən mağazadan ona seriya nömrəsi səhv olan telefon satılması barədə 22-ci Polis şöbəsinə şikayət ərizəsilə müraciət edib. Onun müraciətinə baxılıb və dəymiş ziyan ödənib.

***Ə.Ruhiyyə***

# MARAQ DÜNYASI



*Qar divarı*

Yaponiyada 17 metr hündürlüyündə qar divarlar arasında yerləşən, qeyri-adi görünüşü ilə seçilən "Yaponiya damı" adlı turist marşrutu açılıb. Təqribən 90 kilometr uzunluğunda olan marşrut Tokionun şimalında yerləşən Toyama və Naqano prefekturalarından keçir. Marşrut boyunca ölkənin ən hündür şəlaləsi, həmçinin bəzi yerlərdə hündürlüyü 17 metrə çatan qar divar yerləşib. Bu qeyri-adi mənzərəni seyr etmək üçün həm yerli, həm də əcnəbi turistlər həmin marşruta böyük maraq göstərirlər.

Beş ay davam edən ağır hava şəraitinə görə bağlı qalan yol, nəhayət, açılıb və həvəskarlar Murodo yüksəkliyinə qalxaraq marşrutun ən yüksək - 2450 metr hündürlüyündən ətrafı seyr etmək imkanı qazanıblar.

*Qırmızı rəngin sirri*

İngilis tədqiqatçısı Emi Batler Qrinfield "Mükəmməl qırmızı" adlı kitabında qida texnologiyasının inkişafı fonunda insanların fərqində olmadan minlərlə böcək yediyini yazıb.

Vətəni Cənubi Amerika olan böcəklər qida boyalarında istifadə olunur və bu məqsədlə çoxaldılır. "Karmin böcəyi" adlanan bu həşəratın izləri meyvəli yoqurtdan dondurmaya, rəngli içkilərdən keks kremlərinədək bir çox qida məhsullarında mövcuddur. Xüsusilə Peruda sənaye üsulu ilə artırılan böcəyin əzilməsindən əmələ gələn qırmızı boya qadınların istifadə etdikləri pomadalara da qatılır.

Tədqiqatçı müəyyən edib ki, Karmin boyasının əsas üstünlüyü onun dayanıqlı olmasıdır. İnsan sağlamlığı üçün heç bir təhlükə yaratmayan bu boya istiyə davamlıdır və rəngi solmur. Digər tərəfdən, mütəxəssislər böcəkdən əldə edilən



qırmızı rəngin kimyəvi maddələrdən daha az zərərli olması qənaətindədirlər.

*"Zəhmətkeş" dronlar*

Yaponiyanın qərbində yerləşən Hiroşima prefekturasının kənd təsərrüfatı rəsmiləri yaşlı fermerlərin işini yüngülləşdirmək məqsədilə düyü şitillərinin dron vasitəsilə əkinini sınaqdan keçiriblər.



Hiroşima Hiqaşi şəhərində yerləşən kənd təsərrüfatı kooperativində sınaq zamanı şitillərin olduğu konteynerin üzərində yerləşən operator iki metr hündürlükdən onları əkin sahəsinə yayıb. Ümumi sahəsi 2 min kvadratmetr olan düyü sahəsinə şitillərin əkilməsi cəmi 10 dəqiqə vaxt aparıb. Bu, adi halda həmin sahənin əkilməsi üçün lazım olan vaxtdan altı dəfə azdır.

***Ş.Çingiz***




# YUBİLEY YARIŞINDA GÖZƏL TƏƏSSÜRATLAR YAŞANDI

**Vaxtaşırı daxili işlər orqanlarının əməkdaşları arasında müxtəlif tətbiqi idman növləri üzrə yarışlar keçirilir.** Tək mənim yox, elə bütün belə yarışları izləyənlərin qənaəti belədir ki, bu tədbirlər beynəlxalq yarışlardan heç də geri qalmır. Çünki bu yarışlara qatılan idmançı əməkdaşlarımız arasında dünya və Avropa çempionları, beynəlxalq turnirlərin qalibləri güclərini sınayırlar.



İdmançılarımızın nailiyyətləri, qazandıqları qələbələr artdıqca, texniki və fiziki ustalıqları artır ki, bu da daxili yarışların səviyyəsinin yüksəlməsinə öz müsbət təsirini göstərir. Bu yaxınlarda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının və Azərbaycan Polisinin 100 illiyinə həsr olunmuş cüdo üzrə DİN birinciliyi keçirilib. Bu yarışda da təmsil olunan əməkdaşların əksəriyyəti beynəlxalq yarışların qalibləri, mükafatçıları idi. Kişilərin yarışında peşəkarlığın olmasına, belə deyək, öyrəncəliyik.

Amma diqqətimizi sözügedən yarışda qızlarımızın da hazırlığı, döyüşkənliyi, fiziki, texniki ustalığı çəkdi.

Onlardan biri **Əlahiddə Çevik Polis Alayının polis nəfəri, polis serjantı Nuriyyə Axundovadır**. O, dəfələrlə ölkə birinciliyinin qalibi olub, beynəlxalq yarışlarda yüksək nəticələr əldə edib, bir sözlə, illərin təcrübəsi hazırlığını daha da artırıb.

Bu dəfə də N.Axundova baş mükafata sahib oldu. Sözarası öyrəndim ki, Çexiyada keçirilən dünya çempionatına hazırlaşır.

*Zeyni Hüseynov,*
*polis serjantı*

# TƏLİM TOPLANTISINDA

**Bilik və bacarıqlarının, peşə vərdişlərinin daha da artırılması və təkmilləşdirilməsi məqsədilə Polis Akademiyasında əyani təhsil alan II kursu başa vurmuş kursantlar Daxili Qoşunların Quba rayonunda yerləşən "N" saylı hərbi hissəsində iki aylıq təlim-toplanışına cəlb olunublar.**



Təlim-toplanışı Akademiyanın Hərbi kafedrasının rəisi, polis polkovniki Hacı Aslanov, kafedranın müəllim heyəti, eləcə də kursun rəhbərliyi hərbi hissədən onlara təyin olunmuş bölük və tağım komandirləri tərəfindən həyata keçirilir. Kursantlar hərbi hissədə tərtib olunmuş günün nizam qaydalarına əsasən, həm nəzəri, həm də praktiki məşğələlərə cəlb olunurlar. Praktiki təlimlərə üstünlük verildiyini deyən H.Aslanov kursantlara atəş, fiziki, sıra, rabitə, Daxili Qoşunların taktiki hazırlığı və hərbi topoqrafiya fənlərinin tədris olunduğunu bildirdi. Onun sözlərinə görə, bu zaman kursantlar silahın sökülüb-yığılması, düzgün tətbiqi, təhlükəsizlik qaydalarına riayət olunması, rabitə vasitələrindən istifadə qaydaları, taktiki-texniki xüsusiyyətləri və digər bu kimi biliklərə yiyələnirlər. Həmçinin, təlim toplanışı çərçivəsində polis kursantları ilə başlanğıc atəş çalışmaları da yerinə yetirilir.





Polis polkovniki hər təlim gününün sonunda müəllim heyətilə xidməti müşavirənin keçirildiyini, növbəti günə nəzərdə tutulan tədris proqramının müzakirə olunduğunu diqqətə çatdırdı. Əlavə etdi ki, keçirilən təlimlər polis kursantlarında hərbi bilik və bacarıqların, peşə vərdişlərinin artırılmasında əhəmiyyətli rol oynayır.

Bundan başqa, təlim toplanışı çərçivəsində kursantların mənəvi-psixoloji durumuları, ruh yüksəklikləri, eyni zamanda, təyin olunmuş normaya uyğun qidalanmaları və sağlamlıqları da həm müəllim heyəti, həm də hərbi hissə komandanlığı tərəfindən ciddi nəzarətdə saxlanılır. İstirahət günlərində nəzərdə tutulmuş tədbirlər, yəni valideynlərlə görüş, şən estafetlər, viktorinalar təşkil olunur.

*T.Əlizadə,*
*kapitan*

# «XƏZRİ» SİZİ GÖZLƏYİR!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixədək mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4.** 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

**1 iyun 2018-ci il - 15 sentyabr 2018-ci il**
**(2 nəfərlik standart otağın qiyməti : iki nəfər qaldıqda 230 manat, bir nəfər tək qaldıqda 170 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 28,75 | 42,50 |
| Onun ailə üzvü (50% güzəştlə) | 57,50 | 85,00 |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 115 | 170 |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 | |

*Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!*

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ 2018/2019-cu TƏDRİS İLİ ÜÇÜN RUSİYA FEDERASİYASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN AŞAĞIDAKI TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ƏYANİ TƏHSİL ÜÇÜN NAMİZƏDLƏRİN SEÇİMİNƏ DAİR MÜSABİQƏ ELAN EDİR:

**-Rusiya Federasiyası DİN-in İdarəetmə Akademiyasında-əyani, təhsil müddəti 2 il olan personalın idarəetməsi istiqaməti üzrə magistraturada təhsilə - 1 qəbul yeri üçün;**

**-Rusiya Federasiyası DİN-in V.Y. Kikot adına Moskva Universitetində – əyani, təhsil müddəti 3 il olan hüquqşünaslıq istiqaməti üzrə adyunkturada elmi-pedaqoji kadr hazırlığına - 2 qəbul yeri üçün müsabiqə elan olunur.**

Qəbula namizədlər - daxili işlər orqanlarının orta və böyük rəis heyəti vəzifələrində azı 3 il xidmət edən, ali hüquq təhsilli (adyunkturaya bakalavr təhsilli istisna olmaqla), xidmətdə müsbət xarakterizə olunan, geniş dünyagörüşə və analitik düşüncəyə malik, fiziki cəhətdən sağlam və hazırlıqlı, rus dilində təhsil almış və ya bu dili sərbəst bilən, qüvvədə intizam cəzası və yaşı 35-dən yuxarı olmayan əməkdaşlar sırasından seçilir.

Təhsilə namizədlərlə DİN-in seçmə komissiyası tərəfindən müsahibə aparılacaq.

Müsabiqəni müvəffəqiyyətlə keçmiş əməkdaşın təhsilə göndərilməsi, onun xidmət yeri üzrə tutduğu vəzifədə saxlanılmaqla təhsil müəssisəsinə ezam edilməsi, həmin vəzifə üzrə əmlak və maliyyə təminatının ödənilməsi şərtilə həyata keçirilir. Əməkdaşların təhsil və qalması xərcləri Rusiya Federasiyasının federal büdcəsi hesabına həyata keçirilir.

Müsabiqədə iştirak etmək istəyən əməkdaşlar iyun ayının 25-dək birbaşa rəisləri vasitəsilə nazirliyin Baş Kadrlar İdarəsinə bu barədə raportla müraciət edə bilərlər.

Daha ətraflı məlumatı nazirliyin Baş Kadrlar İdarəsinin Təhsil-təlim, ixtisasartırma şöbəsindən

**(012)590-99-74, (012) 590-98-16 əlaqə telefonları vasitəsi ilə almaq olar.**

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ ƏMƏLİYYAT VƏ STATİSTİK İNFORMASİYA İDARƏSİNİN TABEÇİLİYİNDƏ OLAN ORQANLARDA VAKANT KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın İmişli «Asan xidmət» mərkəzində (3 əməkdaş) və Şəki «Asan xidmət» mərkəzində (3 əməkdaş). Vakant yerlərin tutulması məqsədi ilə keçirilən müsabiqədə aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasının kişi və qadın vətəndaşları iştirak edə bilərlər.

Kiçik rəis heyəti vəzifələrinə Azərbaycan Respublikasının orta-ixtisas və ali təhsil müəssisələrini bitirmiş, yaşı 20-dən 25-dək, boyu 160 (qadınlar), 170 (kişilər) santimetrdən yuxarı olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), özü və yaxın qohumları məhkum olunmamış, «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə» ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşayış yeri üzrə İmişli və Şəki şəhərlərində (ətraf rayonlarda) daimi qeydiyyatda olanlar müraciət edə bilərlər.

Müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanacaq. Müsabiqədə ali təhsillilərə, kompyuterlə işləmək qabiliyyətinə malik olan və xarici dillər bilən şəxslərə üstünlük veriləcək.

Xidmətə qəbul olunmaq istəyən şəxslər 2018-ci ilin iyun ayının 6-dan iyul ayının 6-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri, Nizami rayonu, Məhsəti küçəsi 160-da yerləşən Daxili İşlər Nazirliyinin Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin Arxiv uçot şöbəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər.

*-şəxsiyyət vəsiqəsi*
*-təhsil haqqında sənədin əsli*
*-hərbi bilet (kişilər üçün)*
*-əmək kitabçası (olanlar üçün)*

**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 570-70-80**

*Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi*

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ NÖVBƏTÇİ HİSSƏLƏRİ İDARƏETMƏ XİDMƏTİNİN «102» XİDMƏTİ-ZƏNG MƏRKƏZİNDƏ VAKANT OLAN 10 (ON) KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə» ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, Bakı şəhərində yaşayış yeri üzrə qeydiyyatda olan, Azərbaycan Respublikasının qadın vətəndaşları iştirak edə bilərlər.

Namizədlərin sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali hüquq təhsilli və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcəkdir.

İştirak etmək istəyən şəxslər 2018-ci ilin iyun ayının 1-dən 30-dək **mia.gov.az./?/az/content/29915/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *şəxsiyyət vəsiqəsi;*
- *ali təhsil haqqında diplom;*
- *əmək kitabçası (olanlar üçün).*

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə ilkin olaraq, 700 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat üçün əlaqə telefonları: (012) 590-97-52; şəhər 17-52 daxili**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.298
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00